COP29 Baku Azerbaijan

Yaşıl dünya naminə həmrəy olaq!

# COP29: Yeni əməkdaşlıq üfüqləri

***Azərbaycanın beynəlxalq aləmdə qazandığı uğurların növbəti təsdiqi kimi COP29 konfransına ev sahibliyi etməsi həm ölkə, həm də dünya mətbuatının əsas müzakirə mövzularından biridir. Bu mühüm hadisə dövlətimizin təkcə siyasi və iqtisadi gücünü deyil, həm də qlobal ekoloji problemlərin həllində liderlik rolunu təsdiqləyən bir addımdır.***

COP29 konfransının əsas məqsədinə və məramına diqqət yetirdikdə Azərbaycanın bu tədbirə ev sahibliyi etməsini şərtləndirən amillər aydın şəkildə görünür. Belə ki, konfrans iqlim dəyişmələrinə qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi, qlobal miqyasda davamlı inkişafın təmin edilməsi və "yaşıl iqtisadiyyat"a keçidin sürətləndirilməsi üçün mühüm platformadır. Belə bir mötəbər tədbirin məhz Azərbaycanda keçirilməsi ölkəmizin bu sahədə beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıq etməsinin göstəricisidir. Respublikamızın ekoloji problemlərə verdiyi töhfələr və bu istiqamətdəki təşəbbüsləri qlobal səviyyədə yüksək qiymətləndirilir. Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi, Azərbaycanın iqlim dəyişmələri ilə mübarizəyə verdiyi əhəmiyyəti göstərir. Bu qərar ölkəmizin təkcə öz ekoloji siyasətini gücləndirmək deyil, eyni zamanda beynəlxalq birlik və həmrəyliyi təşviq etmək niyyətində olduğunu nümayiş etdirir. Azərbaycan ekoloji çağırışlarında vurğulayır ki, problemlərin həlli yalnız qlobal birlik və həmrəylik vasitəsilə mümkündür. Azərbaycanın bu çağırışı təkcə ekoloji problemlərlə məhdudlaşmır və daha geniş mənada bəşəriyyətin qarşılaşdığı bütün böyük çətinliklərə qarşı vahid cəbhədə mübarizə aparmaq ideyasını özündə birləşdirir. İqlim dəyişmələri iqtisadi bərabərsizlik, regional münaqişələr, bütün bu problemlərin həlli üçün dövlətlərin əməkdaşlıq etməsi və bir-birinə dəstək verməsi vacibdir. COP29 konfransı Azərbaycanın bu ideyalara nə qədər sadiq olduğunu bir daha göstərir. Xüsusi vurğulamaq lazımdır ki, dünya liderləri və ekoloji ekspertlər Bakıda toplaşaraq qlobal ekoloji problemlərin həlli yollarını müzakirə edəcək, yeni təşəbbüslər irəli sürəcək və beynəlxalq əməkdaşlığı gücləndirəcək. Azərbaycanın bu tədbirə ev sahibliyi etməsi ölkəmizin ekoloji məsələlərdə yalnız iştirakçı deyil, qlobal proseslərdə fəallığı ilə seçilən bir lider dövlət kimi çıxış etdiyini sübut edir. Bu konfrans Azərbaycanın dünyaya ünvanladığı "biz birlikdə daha güclüyük" mesajının təntənəsidir. Ölkəmiz qlobal həmrəyliyin və birliyin vacibliyini hər zaman vurğulayaraq bəşəriyyətin üzləşdiyi problemlərin yalnız kollektiv səylərlə həll edilə biləcəyinə inanır. COP29 isə bu birliyin ən parlaq təcəssümlərindən biri olacaq.

COP tədbirləri dünya liderlərini bir araya gətirən mühüm platforma kimi tarixdə iz buraxır. Bəşəriyyətin ən önəmli çağırışlarından biri olan iqlim dəyişmələrinə qarşı mübarizə məhz bu toplantılarda əsas müzakirə mövzusu olaraq ön plana çıxır. 197 ölkəni birləşdirən bu möhtəşəm tədbirin Azərbaycanın paytaxtında keçirilməsi təsadüfi deyil və bir çox strateji faktorların nəticəsidir. COP29-a ev sahibliyi etmək Azərbaycanın nəinki diplomatik, həm də qlobal səviyyədə ekoloji məsələlərə verdiyi əhəmiyyətin təzahürüdür. Uzun illər boyu Azərbaycan öz xarici siyasətində dəyişməz prinsiplərə sadiq qalaraq yeni dostlar və tərəfdaşlar qazanmaqda böyük uğurlar əldə edib. Bütün ölkələrlə onların böyüklüyündən və ya kiçikliyindən asılı olmayaraq, bərabərhüquqlu və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modeli Azərbaycanın beynəlxalq arenadakı etibarını daha da artırıb. Bu siyasət Azərbaycanın yalnız regionda deyil, qlobal səviyyədə də mühüm bir tərəfdaş kimi qəbul edilməsində əsas rol oynayıb.

Ölkəmiz dünyada etibarlı tərəfdaş kimi tanınır və bu imic təkcə diplomatik arenada deyil, həm də enerji sahəsində özünü təsdiq edir. Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın oynadığı həlledici rol ölkəmizin strateji əhəmiyyətini daha da artırır. Bu, Azərbaycanın uğurlu xarici siyasətinin ən böyük nailiyyətlərindən biridir. Eyni zamanda rəsmi Bakının iqtisadiyyatını düzgün əsaslar üzərində qurması və dünyaya açıq bir dövlət kimi tanınması Azərbaycanın mövqeyini möhkəmləndirən əsas amillərdəndir. Qeyd etmək yerinə düşər ki, Azərbaycan dünya birliyi ilə əməkdaşlığa ilkin mərhələdə regional çərçivədə başlamışdı. Lakin illər keçdikcə ölkəmizin beynəlxalq əlaqələri genişlənmiş, daha böyük coğrafiyaları əhatə edən əməkdaşlıq modelləri formalaşmışdır. COP29-a ev sahibliyi etmək isə bu genişlənən coğrafiyanın və Azərbaycanın qlobal miqyasda etibarının bariz nümunəsidir. Belə bir mötəbər tədbirə ev sahibliyi etmək Azərbaycanın ekoloji məsələlərdə liderlik iddiasını gücləndirir. Bu, ölkəmizin beynəlxalq arenada "yaşıl iqtisadiyyat" və davamlı inkişaf sahəsində ön sıralarda olduğunu təsdiqləyən mühüm addımdır. Xüsusi vurğulamaq lazımdır ki, COP tədbirləri təkcə dövlətlərarası əlaqələrin güclənməsi üçün platforma deyil, həm də iqlim dəyişmələrinə qarşı qlobal mübarizənin səmərəli yollarının tapılması üçün mühüm fürsətdir. Azərbaycanın bu tədbirə ev sahibliyi etməsi, ölkəmizin gələcəyə yönəlmiş strateji baxışının və qlobal problemlərə verilən cavabın bir nümunəsi kimi dəyərləndirilə bilər.

Bu tədbir Azərbaycanın təkcə enerji istehsalçısı kimi deyil, həm də "yaşıl enerji" və davamlı inkişaf sahəsində liderlik mövqeyinə iddialı olan bir dövlət kimi beynəlxalq ictimaiyyətə təqdim olunması baxımından olduqca əhəmiyyətlidir. COP29 dövlətimizin qlobal iqlim siyasətindəki rolunu daha da möhkəmləndirəcək və ölkəmizin ekoloji sahədə atdığı addımların dünya miqyasında tanınmasına şərait yaradacaq. COP29 çərçivəsində Azərbaycanın bərpaolunan enerji mənbələrinin inkişafı, "yaşıl enerji"yə keçid və iqlim dəyişmələri ilə mübarizə istiqamətindəki hədəfləri geniş auditoriyaya təqdim ediləcək. Bu ölkəmizin gələcək strategiyasının təkcə enerji təhlükəsizliyi deyil, həm də ekoloji dayanıqlılıq üzərində qurulduğunu bir daha sübut edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu siyasət Azərbaycanın "yaşıl enerji" növlərinin yaradılması və bu enerjinin dünya bazarlarına nəqli kimi mühüm prioritetləri özündə əks etdirir. Bu prioritetlərin icrası isə ölkəmizi beynəlxalq enerji bazarında yeni mövqeyə çıxarır, eyni zamanda bəşəriyyətin üzləşdiyi ekoloji problemlərin həllinə mühüm töhfə verir.

Azərbaycanın enerji siyasətində "yaşıl enerji"yə keçid artıq mühüm strateji xəttə çevrilib. Ölkəmiz 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payını 30 faizə çatdırmaq hədəfi ilə iqlim dəyişmələrinə qarşı mübarizədə ön sıralarda yer almağı planlaşdırır. Bu məqsəd Azərbaycanın enerji siyasətinin gələcəyə yönəlmiş, ekoloji balansın qorunmasına xüsusi diqqət yetirən bir siyasət olduğunu göstərir. Əlbəttə ki, bərpaolunan enerji mənbələrinin inkişafı təkcə ekoloji cəhətdən deyil, həm də iqtisadi baxımdan ölkəmizə böyük dividendlər qazandıracaq, Azərbaycanın enerji ixracatı potensialını genişləndirəcək.







Dünyanın hər yerindən gələn ekspertlər, liderlər və ekoloji təşkilatlar Azərbaycanın "yaşıl enerji"yə keçid sahəsində həyata keçirdiyi layihələri, əldə etdiyi nailiyyətləri yaxından izləyəcək və bu, ölkəmizin ekoloji siyasətinin beynəlxalq səviyyədə təqdir olunmasına daha da şərait yaradacaq. Bu böyük tədbir dövlətimizin gələcək illərdə də qlobal ekoloji mübarizədə aparıcı rol oynayacağını və ekoloji sahədə yeni təşəbbüslərə imza atacağını göstərir.

Xatırladaq ki, gələn ay baş tutacaq bu tədbirə hazırlıq işləri sürətlə davam edir. Prezident İlham Əliyev oktyabrın 17-də Olimpiya Stadionu ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub. Məlumat verilib ki, ərazidə icra edilən tikinti-quraşdırma işləri artıq tamamlanmaq üzrədir. Hazırlıq işlərinin sürətlə davam etdiyi nəzərə alınaraq tədbir məkanının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) tələb olunan tarixdə təhvil verilməsi planlaşdırılır.

Prezident İlham Əliyevə COP29 konfransının ilk günlərində baş tutacaq Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitinin təşkili istiqamətində atılan addımlar və icra olunan işlərlə bağlı da geniş məlumat verildi. Dövlət başçısı, eyni zamanda Media Mərkəzinə də baxış keçirib. Tədbirin işıqlandırılması üçün bu günə qədər ən nüfuzlu qlobal media qurumları da daxil olmaqla çox sayda media nümayəndəsi akkreditasiyadan keçib. Eyni zamanda Prezident İlham Əliyevə COP29 çərçivəsində yaradılmış Yaşıl Zonada görülən işlər barədə də ətraflı məlumat verildi. Bu zona tədbirin ekoloji təmiz və dayanıqlı həllərə yönəlmiş mesajını daha da gücləndirir. Yaşıl Zonada tətbiq edilən texnologiyalar, alternativ enerji mənbələrinin istifadəsi və ekoloji həssaslıq prinsiplərinə uyğun yaradılmış infrastrukturlar, konfransın əsas məqsədlərindən olan iqlim dəyişmələri ilə mübarizəni praktiki formada nümayiş etdirir. Bütün bunlar bir daha COP29-un Azərbaycanın beynəlxalq arenadakı mövqeyini daha da möhkəmləndirəcəyini və ölkəmizin qlobal səviyyədə qazandığı nüfuza yeni səhifələr əlavə edəcəyinin sübutudur. Azərbaycanın ev sahibliyi edəcəyi bu beynəlxalq konfrans yeni əlaqələrin qurulmasına və mövcud tərəfdaşlıqların daha da dərinləşməsinə şərait yaradacaq. Bu tədbir vasitəsilə Azərbaycan "yaşıl enerji", davamlı inkişaf və ekoloji innovasiyalar sahəsində yeni əməkdaşlıq imkanları yaradacaq.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

